Ədəbiyyat QƏZETİ

# Elbəyi Cəlaloğlu - 50



*Hörmətli Elbəyi müəllim!*

*Sizi 50 yaşınızın tamam olması münasibətilə təbrik edirik.*

*Siz bədii yaradıcılığa ötən əsrin səksəninci illərində başlamısınız. İlk qələm təcrübələriniz mətbuatda işıq üzü görmüşdür. Poeziyasevərlərin maraqla qarşıladıqları «Səninlə ilk görüşdə», «Bu köç hara gedir?», «Dan üzünün rəngi», «Haqq məndədi», «Mehralı bəy» kitablarının müəllifisiniz. Qələminizi publisistikada da sınamısınız. «Göy ərləri, yaxud Borçalı türklərinin etnik tarixinə səyahət» etnoqrafik - publisistik araşdırmalarınız tarixin bir çox qaranlıq səhifələrini işıqlandırır. «Eşq dənizləri qovuşanda» adlı maraqlı yazınız, bu silsilədən məqalələriniz də diqqətdən yayınmamışdır.*

*Hörmətli Elbəyi müəllim!*

*Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.*

**Azərbaycan Yazıçılar Birliyi**